**A.C.Yasinli**
***doktorant, Naxçıvan Dövlət Universiteti***
**altunsektorel@gmail.com**

*Məqalə redaksiyaya daxil olub 10.04.2023*
*The article was received by editorial board on 10.04.2023*
*Статья принята к печати 10.04.2023*

# ÖLKƏLƏRİN İQTİSADİ İNKİŞAFINA KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN MÜSBƏT TƏSİRLƏRİ AZƏRBAYCAN RESPUBLİKASI NÜMUNƏSİNDƏ

**Xülasə**

*Günümüzdə kiçik və orta müəssisələr (bundan sonra –KOM) qloballaşmanın yaratdığı şiddətli rəqabət mühitində milli iqtisadiyyatların dayanıqlı inkişafı baxımından əsas indikator hesab edilməkdədir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə KOM-lar işsizliyinin azaldılmasında və yeni məşğulluq sahələrinin yaradılmasındakı rolu, tarazlı iqtisadi və sosial inkişafın təmin edilməsinə müsbət töhfələri və baş verən geoiqtisadi dəyişikliklərə tez uyğunlaşa bilən çevik istehsal strukturu baxımından iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayırlar. Aparılan tədqiqatda iqtisadi inkişafın nəzəri-metodoloji əsasları araşdırılmış, Azərbaycan Respublikasının gələcək 10 ildə əsas sosial-iqtisadi inkişaf strategiyası, KOM-ların iqtisadiyyatda yeri və rolu təhlil edilmişdir. Araşdırma nəticəsində KOM-ların Azərbaycan Respublikasında kiçik və orta biznes mühitinin təkmilləşdirilməsinə paralel olaraq ölkənin iqtisadi inkişaf göstəricilərinin inkişaf etdiyi təsdiqlənmişdir.*

***Açar sözlər:*** *iqtisadi inkişaf, Azərbaycan iqtisadiyyatı, kiçik və orta müəssisələr.*

## GİRİŞ

Dünya ölkələrinin əhalisinin rifahının yaxşılaşması göstəricisi hesab olunan iqtisadi inkişafın təmin edilməsi üçün sosial və iqtisadi sferalarda bir çox göstəricilərin dinamizmi təmin edilməlidir. Ölkələrin iqtisadiyyatında əsas rola malik olan KOM-lar sözügedən dinamik inkişafın əsas indikatorlarından hesab edilməkdədir. Kom-ların malik olduqları çevik və şaxəli xüsusiyyətləri ilə yanaşı ölkələrin iqtisadiyyatında məşğulluqda, mal və xidmətlərin istehsalındakı sahib olduqları pay iqtisadi inkişafın açarı hesab edilə bilər. Zəngin neft və qaz resurslarına malik olan Azərbaycan Respublikasında iqtisadi inkişafın təmin edilməsində KOM-lar xüusi yer tutur. Araşdırmada iqtisadi inkişafda anlayışının nəzərə əsasları araşdırılmış, KOM-ların iqtisadi inkişafda malik olduqları mövqe qeyd edilmişdir. Eyni zamanda Azərbaycan Respublikasının iqtisadi inkişafına KOM-ların töhfələri və bu mövzuda statistik baza təhlil edilmişdir.

### 1. İqtisadi İnkişaf anlayışı

İkinci dünya müharibəsi nəticəsində insanların sosial rifahı ağırlaşmış, ölkələrin infrastrukturu dağılmış nəticədə sosial və iqtisadi sferalarda böhran başlamışdır. Ölkələr üçün bu ağır vəziyyətdən çıxış yolu olaraq bir çox sahələrdə kompleks dəstək tədbirlərinin həyata keçirilməsi labüd idi. Bu məqsədlə iqtisadi ədəbiyyatda yeni bir termin olan ölkənin inkişafı üçün iqtisadiyyat, hüquq, ekologiya, təhsil, beynəlxalq əməkdaşlıq kimi bir çox sahənin birlikdə inkişafını nəzərdə tutan iqtisadi inkişaf anlayışı ortaya çıxmışdır. İqtisadi inkişafın çox vaxt iqsadi artımla eyni xüsusiyyətlərə malik olduğu başa düşülsə də iqtisadi artım olan bir ölkə iqtisadi inkişafa nail olmaya bilər. Bunun əsas səbəblərindən biri iqtisadi artım dedikdə iqtisadi göstəricilərin yaxşılaşmasını nəzərdə tutulur,

lakin iqtisadi inkişaf isə əhalinin həyat səviyyəsi, iqtisadiyyatın rəqabətliliyi, ümumidaxili məhsul, adambaşına düşən milli gəlir və iqtisadi azadlığın müsbət inkişafını əhatə edir [1].

**1.1 İqtisadi inkişafın əsas göstəriciləri**

İqtisadi inkişaf ölkələrin inkişaf səviyyələri ilə bağlı bir anlayış olub , əhalinin sosial rifahı və həyat tərzinə birbaşa təsir edən element olduğu üçün dövlətlərin dayanıqlı inkişafında iqtisadi inkişaf əsas piroritet hesab edilməkdədir. İqtisadi inkişafın təmin edilməsi üçün ölkənin iqtisadi və sosial həyatında birbaşa investisiyalar, xarici ticarət , texnologiya , infrastruktur, iqtisadi böyümə, gəlirlərin ədalətli bölgüsü yaxşılaşmalıdır [2].

**1.2 Kiçik və ora müəssisələrin iqtisadi inkişafda yeri və rolu**

İqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta müəsssisələr əhəmiyyətli rola malikdir. Belə ki, KOM-ların istehsal etdikləri məhsullar, yaratdıqları məşğulluq imkanları və əhalinin istehlak tələbinin qarşılanması sahəsində ölkələrin iqtisadi artımına müsbət töhfə verməkdədir. Eyni zamanda BMT tərəfindən yoxsulluğa son qoymaq, planeti qorumaq və 2030-cu ilə qədər bütün insanların sülh və firavanlıq şəraitində yaşayışını təmin etmək üçün üzv ölkələr tərəfindən universal fəaliyyət çağırışı kimi qəbul edilən Dayanıqlı İnkişaf Məqsədlərinin 17 istiqamətinin aşağıdakı istiqamətlərinin təmin edilməsində KOM-lar yaxından iştirak edirlər.

**Yoxsulluğa son-** Minimal investisiya ilə qurulan KOM-lar yaratdığı məşğulluq imkanları ilə yoxsulluğun azaldılmasına mühüm töhfə verməkdədirlər. Eyni zamanda dünya təcrübəsində qurulan bir çox KOM-un təsisçilərinin aşağı gəlirli və həssas əhali təbəqəsindən formalaşmaqdadır.

**Gender bərabərliyi-** KOM-ların fəaliyyətində qadınlar böyük rol oynamaqdadır. Belə ki, qadınlara məxsus bizneslər və qadınların rəhbərlik etdiyi bizneslərin böyük əksəriyyəti məhz KOM-lardır. Hazırda beynəlxalq praktikada gender bərabərliyinin təmin edilməsində uğurla tətbiq edilən mexanizmlərdən biri məhz qadın sahibkarlığının təşviqidir.

**Layiqli əmək və iqtisadi artım**- Dünyada mövcud yoxsulluğun və az gəlirliliyin başlıca səbəbi iş yerlərinin az olmasıdır. İş yerlərinin sayının artması üçün mikro investisiya ilə qurulan və dayanıqlı iş yerləri hesab edilən sahibkarlıq kateqoriyaları məhz kiçik və orta müəssisələr hesab edilməkdədir. Sözügedən hədəfin təmin edilməsi məqsədi ilə dünya dövlətləri KOM-ların maliyyə mənbələrinə çıxış imkanlarını artırır.

**2.Azərbaycan Respublikasının iqtisadi inkişafının əsas istiqamətləri**

Hər bir ölkə kimi Azərbaycan Respublikasında da ən başlıca siyasət iqtisadi inkişafın təmin edilməsidir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq edilmişdir [4]. Sözügedən sərəncama əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi beş Milli Prioritetləri reallaşdırılmalıdır.

Qeyd olunan piroritetlərə nail olunması üçün özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınması əsas iqtisadi siyasət olaraq göstərilmişdir.

**2.1 Azərbaycan Respublikası iqtisadiyyatında kiçik və orta müəssislərin yeri**

Gəlirlərinin əsasını neft və qaz sektoru təşkil edən Azərbaycan Respublikasında dayanıqlı sosial və iqtisadi inkişafın təmin edilməsi məqsədi ilə resurslardan asılı olmayan iqtisadi inkişaf modelinin qurulması əsas piroritet hədəf olmaqdadır. Bu məqsədlə ölkə iqtisadiyyatında qeyri-neft sektorunun əsas aktoru hesab edilən KOM-ların inkişafının dəstəklənməsi istiqamətində bir çox stimullaşdırıcı addımlar atılmaqdadır.

2021-ci ilin göstəricilərinə baxdıqda ölkə iqtisadiyyatında qeyri neft- qaz sektoru üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı aşağıdakı kimi olmuşdur: [5]

- iqtisadiyyatda yaradılmış əlavə dəyərdə 26.6 %;
- müəssisələrdə muzdla işləyənlərin ümumi sayında 43.2%;
- sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda 30.8%.

Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında 99.7%.

**2.2 Kiçik və orta müəssisələrin Azərbaycan Respublikasının iqtisadi inkişafına təsirləri**

**Rəqabətqabiliyyətli iqtisadiyyatı** - Bazar iqtisadiyyatının əsas tənzimləyicimexanizmi hesab edilən rəqabət istehsaledilən məhsulların bazar qiymətinin formalaşmasında da əsas rolu oynamaqdadır. KOM-lar dünyada artan rəqabət mühitinə böyük müəssisələrə nəzərən daha sürətli və asan uyğunlaşmaqda, rəqabətə cavab vermədikdə bazar payını itirməsinin iqtisadi və sosial nəticələrinin iri müəssisələrin yaratdığı neqativ təsirlərin daha az olmaqdadır. Həmçinin onlar istehsal və idarəetmənin təkmilləşdirilməsinə kömək edərək iqtisadiyyatda innnovasiya proseslərini təmin etməsinə digər tərəfdən elmtutumlu məhsulların istehsalına bilavasitə cəlb olunmasına rəvac verir. Azərbaycan Respublikasında son illərdə KOM-ların dəstəklənməsi və inkişafı sahəsində atılan stimullaşdırıcı addımlar nəticəsində rəqabətqabliyyətli iqtisadiyyatın əsas göstəricisi hesab edilən yaradılmış əlavə dəyərin həcmi aşağıdakı qrafikdən görüldüyü kimi artmaqdadır.




**Qrafik 1. Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin həcmi (milyon manatla)**

***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Azərbaycanda Mikro, Kiçik və orta sahibkarlıq statistik məcmuə (səhifə 184)*

**Sosial ədalətə əsaslanan cəmiyyət-** Dünya statistikasında fəaliyyətə başlayan müəssisələrin əksəriyyəti kiçik və orta müəssisə olaraq fəaliyyətə başlamış və daha sonra inkişaf etmişdir. Kiçik kapitalla fəaliyyətə başlayan KOM-ların artım və inkişafı birbaşa olaraq əhalinin orta gəlir səviyyəli olmasına xidmət etməkdədir. Buna görədə KOM-ların ölkə iqtisadiyyatında sahib olduğu pay artımına paralel olaraq ölkə əhalisinin rifahıda artmaqdadır. Azərbaycan Respublikasında son illərdə KOM-ların ölkə iqtisadiyyatında və məşğulluqda artımına paralel olaraq yoxsulluqda azalmağa başlamışdır. Belə ki, 2001- ci ildə yoxsulluğun səviyyəsi 49 faiz idisə bu 2021-ci ildə bu göstərici 5.9 faiz olmuşdur [6] . Həmçinin Azərbaycan Respublikasında yoxulluğun azaldılması məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə "Özünüməşğulluğun təşkili" Qaydası təsdiq edilmişdir. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə

birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir [7].

**İnnovasiyalı iqtisadiyyat** - İqtisadi sahədə innovasiya deyildikdə yeni əmtəənin istehsalı və ya tətbiqi, əməyin vəya istehsalın təşkilinin yeni üsullarla tətbiqi, yeni bazarın kəşfi, yeni xammal mənbələrinin aşkar edilməsi, yeni maşın və avadanlıqlar başa düşülür [8]. Çevik və mobil xüsusiyyətlərə malik olan KOM-lar iqtisadi proseslərə uyğunlaşma qabliyyəti, azsaylı heyət , son nəticəyə istiqamətlənmə, iri firmalara nisbətən riskə almanın asan olması yüksək əmək məhsuldarlığı və kiçik istehsal xərclərinin olması onların innovasiya potensialının yüksək olmasına şərait yaradır. Dünya miqyasında ən innovativ bizneslərin qurulması və mal və xidmətlərin istehsalında yeni metodların kəşfi məhz KOM-ların adı ilə bağlı olmuşdur. Hazır Azərbaycan Respublikasında KOM-ların innovasiyalı iqtisadiyyatdakı payı artmaqda davam etməkdədir. Belə ki, innovativ təşəbbüsə əsaslanaraq həyata keçirilən layihələrin dəstəklənməsi məqsədi ilə , müvafiq meyarlara cavab verən və mikro, kiçik və orta sahibkarlığın "Startap" şəhadətnaməsi verilməkdədir. "Startap" şəhadətnaməsini alan mikro və kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq şəhadətnaməni aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən Statrtap şəhadətnaməsi verilmədidəri ki, son 2 ildə startap şəhadətnaməsi almış KOM-ların sayı artmaqdadır [10].




**Qrafik 1. Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin həcmi (milyon manatla)**

***Mənbə:*** *https://smb.gov.az/az/nav/startap-sehadetnamesi*

**Regionların tarazlı inkişafı-** Ölkələrin bölgələri əhalinin sayı, təbii resurslar, təhsil səviyyəsi, istehlakçı sayına və.s göstəricilərə görə bir-birindən fərqlənməkdədir. Sözügedən amillər əhalinin sayına, rifahına və miqrasiyasına birbaşa olaraq təsir göstərməkdədir. Dünya ölkələrinin mənimsədiyi sosial və iqtisadi siyasətin əsas piroritetlərindən biri də regionların tarazlı inkişafı olmaqdadır. Regionlar arasında iqtisadi fərqlərin azaldılması və bölgələrdə bərabər iqtisadi-sosial rifahın təmin edilməsi məqsədi ilə dövlətlər ilk olaraq sahibkarlığın inkişafı üçün müvafiq təşviq alətlərindən istifadə etməkdədirlər. Azərbaycan Respublikasında müəssisələrin yerləşdiyi coğrafiyaya baxıldığında müəssisələrin daha çox paytaxt Bakı şəhərində və ölkənin digər böyük şəhərlərində yerləşdiyi müşahidə edilməkdədir. Qeyd edilən tendensiyasının azalması və regionların tarazlı inkişafı məqsədi ilə İnvestisiya təşviqi sənədi və KOB klaster şəhadətnaməsi kimi vergi və gömrük

azadolmalarını özündə ehtiva edən və regionlara investisiyaları stimullaşdıran mexanizmlərin tətbiqi nəticəsində regionlarda sahibkarlığın xüsusi çəkisi artmağa başlamışdır.

**Qrafik 3. Ölkənin regionlarında fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı (Bakı şəhəri istisna olmaqla)**




*Mənbə:* *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Azərbaycanda Mikro, Kiçik və orta sahibkarlıq statistik məcmuə (səhifə -71)*

**Qadın sahibkarlığının inkişafı** – İstehsal faktorlarından birini təşkil edən əmək resurslarıdır.Əmək resurslarından səmərəli istifadə isə yekunda mal və xidmətlərin istehsalında məhsuldarlığın təmin edilməsi ilə nəticələnməkdədir. Hazırda dünya ölkələrində əmək resurslarının böyük bir hissəsini təşkil edən qadınların əmək bazarında iştirakı kişilərə nisbətən daha azdır. Ölkələr tərəfindən iqtisadi inkişafın təmin edilməsi istiqamətində atılmalı addımlardan biri də məhz qadınların iqtisadiyyatda rolunun yüksəldilməsidir. Bu istiqamətdə atılna ən effektli metodlardan biri də məhz qadınların KOM-lardakı yeri və rolunun artırılmasıdır. Azərbaycan Respublikasında qadınların KOM-lardakı yerinin gücləndirilməsi üçün inkişafı sahəsində son illərdə görülən inistituonsial işlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin 7.4.4. Prioritetinin 4.4-cü bəndi məhz qadın sahibkarlığının inkişaf etdirilməsi olmuşdur. Aşağıdakı qrafikdən göründüyü kimi stimullaşdırıcı tədbirlər nəticəsində KOM-larda muzdla işləyən qadınların sayı artmaqdadır [10].




**Qrafik 4. Mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrdə muzdla işləyən qadınların sayı, nəfər**

***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi  Azərbaycanda Mikro, Kiçik və orta sahibkarlıq statistik məcmuə 2022   (səhifə 71)*

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın  məqsədinin Qadınların yüksək gəlir gətirən iş yerlərinə çıxış imkanlarının genişləndirilməsi məqsədilə əlavə mexanizmlərin yaradılması və tətbiqi nəzərdə tutulmuşdur [11].

**NƏTİCƏ**

Dünya ölkələrinin dayanıqlı inkişafı üçün əsas piroritet hesab olunan iqtisadi inkişafın təmin edilməsində KOM-lar əsas hərəkatverici qüvvə hesab edilməkdədir.  Xüsusiyyətlərinə görə kiçik işçi qüvvəsi və həssas maliyyə qurluşuna malik olan KOM-lar iqtisadi inkişafın əsas hədəf göstəriciləri olan əhalinin maddi rifahının artımı, biznes mühitinin təkmilləşdirilməsi, regionların tarazlı inkişafı , gender bərabərliyinin təmin edilməsi kimi indikatroların inkişafının təmin edilməsində mühim rol oynayır.

İqtisadiyyatının əsasını neft və qaz sənayesi təşkil edən Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün qeyri-neft sektorunun inkişafı piroritet olmaqda və bu  hədəfə nail olunması üçün KOM-ların fəaliyyətini təşviq edən stimullaşdırıcı mexanizmlər tətbiq edilməkdədir. Tədqiqat işində aparılan araşdırma nəticəsində KOM-ların dəstəklənməsi sahəsində atılan stimullaşdırıcı addımların iqtisadi inkişaf hədəfləri ilə mütənasiblik təşkil etdiyi isbat olunmuşdur.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Aktaş, T. (2012). "Küreselleşme, Kalkınma ve Dış Ticaret", İktisadi Kalkınma, (Ed.). Günsoy B. & Özsoy C., Eskişehir: Anadolu Üniversitesi Yayınları, Yayın No: 2668, ss. 202-229.

**2.** Boozer, M. A., Ranis, G., Stewart, F. & Suri, T. (2003). "Paths to success: The Relationship Between Human Development and Economic Growth", Economıc Growth Center, Yale Unıversıty, New Haven, CT. Center Dıscussıon Paper No. 874, https://egcenter.economics.yale.edu/ (22.03.2023)

**3.** Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının rəsmi internet səhifəsi https://sdg.info.az/az (22.03.2023)

**4.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı https://president.az/az/articles/view/50474  (24.03.2023)

**5.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi  Azərbaycanda Mikro, Kiçik və orta sahibkarlıq rəsmi statistik məcmuə 2022  (səhifə 130-157)

**6.** Dövlət Statistika Komitəsi (yoxsulluq həddi və yoxsulluğun səviyyəsi)

**7.** "Özünüməşğulluğun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı https://e-qanun.az/framework/45038  (27.03.2023)

**8.** Atakişiyev , Süleymanov İnnovasiya menecmenti bakı 2004 səhifə7-8

**9.** Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi rəsmi internet saytı https://smb.gov.az/az/nav/startap-sehadetnamesi (27.03.2023)

**10.** Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi https://president.az/az/articles/view/22197 (01.04.2023)

**11.** "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" https://e-qanun.az/framework/50013 (01.04.2023)

**A.C.Yasinli**
*doctoral student, Nakhchivan State University*

## The contribution of SMEs to the economic development on macro level (in the example of Azerbaijan)

**Abstract**

*Nowadays, small and medium enterprises are the key indicators for sustainable development of national economies as globalism creates a severe competitional environment. In Azerbaijan, a developing country, small and medium enterprises help to mitigate unemployment rates, create new job opportunities, positive contributions to the balanced economic and social development, additionally as a quick production system they demonstrate quick adaptiveness to geoeconomic challenges. As a result of researching theoretical and methodological aspects of theory, the major economic and social development strategy of the Republic of Azerbaijan and the role and function of SMEs in the economy is analyzed. Additionally, the economic development indicators on macro level are developed parallelly to the positive contribution of SMEs to the environment of small and medium enterprises.*

***Key words:*** *economic development, economy of Azerbaijan, small and medium enterprises.*

**А.Дж.Ясинли**
*докторант, Нахчыванский Государственный Университет*

## Положительное влияние малых и средних предприятий на экономическое развитие стран на примере Азербайджанской Республики

**Резюме**

*В настоящее время основным показателем устойчивого развития национальной экономики в условиях жесткой конкуренции, вызванной глобализацией, считаются малые и средние предприятия (далее– МСП). В развивающихся странах, таких как Азербайджан, МСП играют важную роль в обеспечении экономического развития с точки зрения их роли в снижении безработицы и создании новых сфер занятости, их положительного вклада в обеспечение сбалансированного экономического и социального развития и их гибкой производственной структуры, которая может быстро адаптироваться к происходящим геоэкономическим изменениям. В проведенном исследовании были изучены теоретико-методологические основы экономического развития, проанализирована основная стратегия социально-экономического развития Азербайджанской Республики на ближайшие 10 лет, место и роль МСП в экономике. В результате исследования было подтверждено, что МСП развивают показатели экономического развития страны параллельно с улучшением среды малого и среднего бизнеса в Азербайджанской Республике.*

***Ключевые слова:*** *экономическое развитие, экономика Азербайджана, малые и средние предприятия.*